# Dövlət Statistika Komitəsində Beynəlxalq Valyuta Fondunun nümayəndəsi ilə görüş keçirilmişdir



Fevralın 1-də Dövlət Statistika Komitəsinin sədri cənab Tahir Budaqov Beynəlxalq Valyuta Fondunun Azərbaycan/ Yaxın Şərq və Mərkəzi Asiya üzrə departament direktorunun köməkçisi cənab Mohammed El Qorchi və Dünya bankının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Nadir Ramazanovla görüşmüşdür.

Görüşün əsas məqsədi Ümumi daxili məhsulun hesablanmasında istifadə olunan statistik məlumatların və istehlak qiymətləri indeksinin hesablanması metodlarının müzakirəsi olmuşdur.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov nümayəndələri salamlayaraq, Dövlət Statistika Komitəsi ilə Beynəlxalq Valyuta Fondu arasındakı qarşılıqlı əməkdaşlığı müsbət qiymətləndirdiyini, bu əməkdaşlığın başlanma tarixinin Azərbaycanın müstəqillik qazandığı dövrə təsadüf etdiyini bildirmişdir. O qeyd etmişdir ki, 2008-ci ilin fevral ayında Beynəlxalq Valyuta Fondunun ekspertləri istehlak qiymətlərinin, 2013 - 2014-cü illərdə isə ümumi daxili məhsulun hesablanmasında istifadə olunan statistik metodologiyaların təkmilləşdirilməsində Komitəyə dəstək göstərmişlər.



Öz növbəsində, cənab Mohammed El Qorchi iki təşkilat arasında münasibətlərin uğurlu inkişafından məmnun olduğunu söyləmiş, müxtəlif sahələr üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd etmişdir.



Görüş zamanı Tahir Budaqov nümayəndələrə Komitənin fəaliyyəti və gələcəkdə ölkə statistika sisteminin qarşısında duran mühüm vəzifələr, statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılması məqsədilə statistika sistemində aparılan təkmilləşdirilmə prosesi, ayrı-ayrı

icra orqanlarında mövcud olan məlumat bazalarının inteqrasiyasının təşkili və təkmilləşdirilməsi haqqında geniş məlumat vermişdir.



Cənab El Qorchi Beynəlxalq Valyuta Fondunun Azərbaycandakı fəaliyyəti haqqında və növbədə duran işlər haqqında məlumat vermişdir.

Sonda cənab Tahir Budaqov nümayəndələrə Dövlət Statistika Komitəsi ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlığın Azərbaycanın sosial, iqtisadi inkişafına xidmət edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Cənab Mohammed El Qorchi Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova səmimi qəbula görə minnətdarlığını bildirmişdir.